ZODLU ABDULLA

(1865-1943)



Bakı – 2024

Toplayıb tərtib edən: İbadulla AĞAYEV

Redaktor: Qabil ZİMİSTANOĞLU

Korrektor: Elnur İRƏVANLI

Kitabda XIX əsrin sonu, XX əsrin ortalarına kimi yaşayıb-yaradan Zodlu Abdullanın şeirləri və bir rəvayət işıq üzü görüb. Erməni vandallığı nəticəsində doğma Göyçəsindən ayrı düşən şairin yaradıcılığında yer-yurd itkisi və qaçqınlıq dövründə üzləşdiyi mərhumiyyətlər də öz əksini tapıb. Vətənə olan sevgi, təbiət və gözəllərə verilmiş tərifler də ustad yaradıcılığının əsas xəttini təşkil edir.

ISBN-978-9952-572-87

© İ.Ə.Ağayev

ÖN SÖZ

Zodlu Abdulla kimi tanınan Namazov Abdulla Rəhim oğlu qədim Göyçə mahalında yaşayıb-yaradan müasirləri arasında nüfuzlu söz sərraflarından olub. Özünün yaratdığı bənzərsiz poetik nümunələrlə bir sənətkar kimi hələ uşaqlıqdan diqqətimi çəkib.

Bəs necə oldu, Zodlu Abdulla yaradıcılığına mənim sonsuz məhəbbətim yarandı, onun şeirlərini sevməyə, əzbərləməyə, təbliğ etməyə başladım?

Bu maraqlı tarixçə barədə dəyərli oxucularıma, Abdullasevərlərə ətraflı məlumat verməyi özümə borc bildim.

Mənim uşaqlıq illərim keçmiş Əli-Bayramlı (indiki Şirvan) rayonunun Cəngən kəndində (bu kənd 1963-cü ildə Sabirabad rayonunun tabeçiliyinə verilib) keçib. Kürün sahilində yerləşən bu kəndin yuxarı başı tuqay meşəsi, aşağı tərəfi isə 1920-ci illərdə salınmış çinar, qovaq, qarağac meşələri ilə əhatə olunmuşdu.

Əslən keçmiş Şamaxı Quberniyasının (1859-cu il zəlzələsində Quberniya Bakıya köçürülmüşdür), hazırda Hacıqabul rayonunun Rəncbər kəndindən olan atam Əliağa kişi 1948-ci ildə işi ilə əlaqədar Cəngən kəndinə köçüb, orada anamla ailə həyatı qurub və yaşayıbdır. Həmin illərdə Qərbi Azərbaycanın Göyçə mahalından məcburən köçürülən göyçəlilərin xeyli

hissəsi bu kənddə məskunlaşmışdı və hal-hazırda da orada yaşayırlar. Qaçqınlar üçün tikilmiş evlərin birini də atama (bu kənddə atamın evi olmadığı üçün) vermişdilər. Evimizin hər tərəfində Göyçədən köçürülmüş ailələr yaşayırdı.

Uşaqlığım mənə əziz olan, doğmalardan doğma saydığım Gülalı dayı, Midvar xala, Xəzəl nənə, Roza nənə, Əziz dayı, Bayram kişi, Ramazan, Yəhya, Məhəmmədəli, Bəhmən, Həsən, Xanım xala, uşaqlardan Gülüstan, Rüstəm, Ələstan, Elxan, Novruz, Fazilə, Vaqif və Şahbazın arasında keçibdir. Bayram dayının övladları Əkbər müəllim kimya-biologiyadan, Əsgər müəllim isə riyaziyyatdan mənə dərs deyirdi. Fizika müəllimim İsmayıl Kərimovla isə xüsusi dostluğum var idi. Əksər hallarda ayrı-ayrı fənlərdən müəllim və şagirdlər arasında müzakirələr aparılar, bilmədiklərimizi müəllimlərimizdən öyrənərdik.

Göyçəlilərin uşaqdan böyüyədək hamısının elmə, aşıq sənətinə, şifahi xalq ədəbiyyatına böyük sevgi və marağının olduğunun şahidi oldum. Tez-tez aşıq məclisləri qurular, qonşularımız maraqla dastançı aşıqlara qulaq asar, ustad aşıqların şeirlərini dinləmək üçün sənətkarlara sifarişlər verərdilər.

Mən də bax beləcə, sazı, sözü, şeiriyyəti sevən, elmə xüsusi önəm verən belə bir mühitdə böyüdüm. Uşaqlıqdan şeiriyyətə, xüsusilə də aşıq poeziyasına

olan həvəsimi görən göyçəlilər mənə xüsusi hörmətlə yanaşır, məhəbbət göstərirdilər. Kəndimizə toy aparmağa gələn Şirvan aşıqlarından Şakirin, Məmmədağanın, Rzanın oxuduqları aşıq mahnıları, ən çox isə Salyan aşıqlarından Aşıq Pənahın, Qurbanxanın, Əlisahibin, Kamilin, Aşıq Alının, Dədə Ələsgərin sözlərinə bəstələdikləri mahnılar məni valeh edirdi. Onlara saatlarla qulaq asırdım.

Aşıq Pənah atamın qohumu olduğu üçün tez-tez onu sorğu-suala tutardım. Hacıqabulda təhsil aldığım illərdə toylarda aşıqlardan Şakiri, Məmmədağanı, Əhmədi, Xanışı, Baratı, Hacalını, Rzanı daha yaxından tanıdım və bu kişilərə Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Bilal və ümumiyyətlə ustad aşıqlarımızdan oxuduqları üçün ürəyimdə min dəfə "sağ ol" deyirdim.

Bir dəfə qohumlarımızgilə qonaq getmişdim. Geri dönəndə Göyçə camaatının məndən ötrü necə darıxdıqlarının şahidi oldum. Onların məni necə sevdiklərini görüb çox duyğulandım və özümdən asılı olmayaraq ağladım.

Xəzəl nənənin "dədəm, anam sana qurban, ay İbadulla, harda idin" verdiyi sualı, məni qucaqlayıb öpdüyünü ömrüm boyu heç vaxt unutmaram.

Xəzəl nənə əslən Göyçənin Göysu kəndindən idi. At belində gəzən bu nənənin zahirində gözəllik, batinində saflıq, paklıq var idi. Əziz dayı Aşıq Pənahı

görən kimi Aşıq Alıdan, Dədə Ələsgərdən oxumasını xahiş edərdi.

Bir dəfə təşkil olunan məclislərin birində Göyçənin Şorca kəndindən olan Aşıq İslamın Zodlu Abdulla haqqında həvəslə söhbət açması, onun şeirlərini xoş avazla oxuması məndə bu sənətkara qarşı böyük maraq yaratdı. Bir məsələni xüsusi vurğulamaq istəyirəm ki, bizim kəndin (Göyçədən olmayan) əhalisinin də aşıqlara və aşıq musiqisinə böyük marağı var idi. Dastançı aşıqların gecə səhərədək söylədikləri dastanlara sakit qulaq asdıqlarını həmişə xatırlayıram, aşığı həvəsləndirmək üçün uca səslə "sağ ol", "yaşa, ay aşıq" dedikləri hələ də qulaqlarımdan getməyib.

Aşıq İslamın Zodlu Abdulladan oxuduğu **"Bunu yaxşı bilir arif olanlar, qürbətdə yar sevmək nə şirin imiş"** misraların təsirindən bir nəfər məclisdə necə hönkür-hönkür ağladı. Bu insanın adını ona görə çəkmək istəmirəm ki, sevgilisi Arazın o tayında qalmışdı...

Sonralar İslam dayı məni Göyçəyə də aparıb kəndbəkənd gəzdirərək orada görüşdüyümüz insanlara deyirdi ki, bu uşağın yaxşı yaddaşı var, çoxlu şeirlər bilir. Onlar da mənə xüsusi ehtirmla yanaşır, yaddaşımı yoxlamaq üçün suallar verirdilər.

Atamın zəngin kitabxanası olduğu üçün gecə-gündüz kitab oxuyardım. Nələr yox idi burada: dünya ədəbiyyatından bütün nümunələr və bizimkilər.

Açığını deyim ki, həkim olmaq istəmirdim, ədəbiyyatçı olmaq arsuzu ilə həkim oldum. Amma bu sevdadan hələ də əl çəkməmişəm. Beləcə Aşıq Alı, Dədə Ələsgər sevdalı bu oğlan Zodlu Abdullaya da vuruldu.

Mənim əlimdə Zodlu Abdulla haqqında ilk yazılı ədəbiyyat Rəşid Mehdiyev (Allahın salamları olsun ona) tərəfindən tərtib edilmiş, 1976-cı ildə işıq üzü görmüş kitab olmuşdu. Rəşid müəllimin toplayıb ərsəyə gətirdiyi bu kitab onun əziyyətli əməyinin bəhrəsi idi. Rəşid müəllim əslən Gədəbəy rayonundan olub. Göygöl rayonunda (keşmiş Xanlar) işıq üzü görən "Kommunist əməyi" qəzetində müxbir işləyib. Rəşid müəllim Zodlu Abdullanın nəvəsi Əminə xanımın əmisi Sayad kişi ilə elə o zaman dostluq edib və ustadın şeirlərini də elə onun vasitəsilə toplayıb.

Usta Abdulla və nəslinin nümayəndələri dəfələrlə erməni daşnaklarının soydaşlarımıza qarşı törətdikləri soyqırımlar nəticəsində deportasiyaya məruz qalıblar. Ötən əsrin əvvəllərində, eləcə də 1948-ci ildə Göyçədən deportasiya olunub Göygöldə məskunlaşıblar.

Yaxşı dülgər və xarrat olduğu üçün ona "Usta Abdulla" deyirdilər. O, yaxşı saz da bağlaya bilirdi.

Zodlu Abdullanın poetik dünyası Bakı Musiqi Akademiyasının müəllimi, Nemət Qasımlının da diqqətini çəkir. Əslən Gədəbəydən olan Nemət Qasımlı

“Usta Abdullanın poetikası” adlı maraqlı bir monoqrafiya yazıb. Yazdığı monoqrafiyada Usta Abdullanın poetik dünyası və Göyçə mühiti əhatəli şəkildə araşdırılıb.

...Bəzən insanın həyatında elə anlar olur ki, istədiyin, könlündən keçənlər qapının ağzına gəlir və o zaman sevincinin həddi-hüdudu olmur. Mənim 1967-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olmağım və Aşıq Abdullanın kəndlisi Hacıyev Vahid Hacalı oğlu ilə bir qrupda oxumağım və sonralar Hacalı dayı ilə yaxın təmasım, onun Aşıq Abdullanı görməsi və onun haqqında mənə danışması, şeirlərindən əzbər söyləməsi böyük sənətkara qarşı marağımı daha da artırdı.

Vahid Hacıyevin Göygöl rayonunda yaşaması və işləməsi məni zodlularla daha da yaxından birləşdirdi. Sonralar mən Vahid Hacıyevin vasitəsi ilə Zodlu Abdullanın nəvəsi, çox böyük hörmət bəslədiyim Əminə xanımla tanış oldum. Onun da böyük sevgi ilə babasının irsini toplaması məni axtarışlarımı davam etdirməyə bir daha həvəsləndirdi.

Göyçəlilər, mənim əzizlərim! Qədim Göyçə Azərbaycanımın gül parçasıdır! Əziz qardaşım, Türk dünyasının böyük şairi, mərhum Eldar İsmayılın **“Sən məni aldada bilməzsən, dünya”** kitabına ön sözü mən yazmışam. Orada yazmışdım ki, Eldar, aparacağam səni Göyçəyə. Doğrudur, mən apara bilmədim Eldarı.

Siz məni aparın Göyçəyə, Babam Alının, Dədə Ələsgərin qəbirlərini ziyarət edim.

Eldar qağa, kaş sağ olaydın! Yenə də doğulduğun Göyçəni bax beləcə vəsf edəydin:

“Qədim Göyçə gölü sular sonası,
Pozulmaz ilqarı, əhdi, vəfası,
Eldar, bu yerdədir ömrün mənası,
Burdan bezmək harda, doymaq hardadı?”

Mənim Göyçəyə olan sevgimin başında duran şəxsiyyətlərdən biri də Azərbaycan xalqının fəxri, fəxarəti olan akademik Əhliman Əmiraslanovdur. Uzun illər onun rəhbərliyi altında işləmişəm və onun mənə olan qardaşlıq münasibətinin dəyəri ölçüyə gəlməzdir.

2011-ci ildə ağır cərrahi əməliyyat keçirdiyim zaman mənə zəng vurub istər maddi, istərsə də mənəvi cəhətdən hazır olduğunu bildirdi. Mənim Sizə borcum var, hörmətli Əhliman müəllim!

Zodlu babam Abdulla kişi də bu bəndi Zoddan belə bir alimin olacağını qabaqcadan duyduğu üçün sanki Əhliman müəllimə xitabən yazıb:

“Parlaq elmlərin dönüb çırağa,
Möhtac deyil nə piltəyə, nə yağa.
Arzum budur, bir gün düşmə irağa,
Sənətin, ilhamın piyaləsindən”

Mənə bu işdə yaxından kömək edən, çox böyük zəhməti olan tədqiqatçı-jurnalist, əziz qardaşım Qabil Zimistanoğluna, tədqiqatçı-yazar Araz Yaquboğluna, aşıq sənətinin mahir bilicisi, ustad aşığımız Bəhmən Göyçəliyə də dərin təşəkür və ehtiramımı bildirirəm.

Doğrudur, toplayıb çap etdirdiyim şeirlər Usta Abdullanın tam irsini əhatə etmir. Amma belə bir sənətkarın poetik dünyası ilə tanış olmalarının zəruriliyini nəzərə aldım və əlimizdə olanların nəşr olunmasına qərar verdim. İnanıram ki, əlimizdə olan bu kitab və Zodlu Abdulla irsi tədqiqatçıların diqqətini çəkəcək, maraqlı araşdırmalar aparacaqlar.

İbadulla Əliağa oğlu Ağayev

Azərbaycan Tibb Unversitetinin Epidemiologiya və biostatistika kafedrasının müdiri, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Əməkdar müəllim

MAHALIM GÖYÇƏDİ, SAKİNİM ZODDU

Göyçə ədəbi mühitində tarixən bir-birindən bənzərsiz məşhur söz xiridarları yetişib. Belə söz sənətkarlarından biri də XIX əsrin sonu, XX əsrin ortalarında yaşayan Zodlu Usta Abdulladır.

Usta Abdulla (Namazov Abdulla Rəhim oğlu) 1865-ci ildə qədim Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində anadan olub. Zodda dünyaya göz açdığına görə, ona el arasında "Zodlu Abdulla", dülgərlik və xarratlıqla məşğul olduğu üçün ona həm də "Usta Abdulla" deyiblər. Atası Rəhim kişi də mahalın tanınmış xarratlarından olub, bu peşənin incəliklərini oğlu Abdullaya da öyrədib.

Rəhim kişi həm də şeir-sənəti çox sevirmiş. Tez-tez Göyçənin tanınmış aşıqları onun evinə yığışar, saz çalar, söz oxuyar, dastanlar söyləyərmiş. Aşıq-şair mühitində böyümək Abdulaya da təsirsiz ötüşmür. O da öz növbəsində yeri gəldikcə mənalı və məzmunlu şeirlər yazmağa başlayır.

Qoşma, gəraylı, təcnis, müxəmməs və s. janrlarda şeirlər yazan sənətkar 1918-1920-ci illərdə Göyçədə erməni daşnaklarının soydaşlarımıza qarşı törətdikləri vəhşilik və soyqırımların da şahidi olur. Bu səbəbdən sənatkar doğma Zodu tərk etmək məcburiyyətində qalır. Qaçqınlıq həyatı onu Aran zonasına gətirib

çıxardır. Ağır məhrumiyyətlərlə üz-üzə qalan sənətkar yazır:

Əyyami-qəzada, dəhri-dünyada,
Bilirsənmi, nə bəlalar çəkmişəm?!
Ahu-zar, müsibət dünyadan çıxıb,
Leyli-nahar nə nalalar çəkmişəm.

Mahalının dağıldığını, elinin pozulduğunu, yerindən, yurdundan ayrı düşdüyünü sənətkar böyük ürək ağrısı ilə aşağıdakı kimi təsvir edir:

Dağıldı mahalım, pozuldu elim,
Tükəndi dövlətim, gödəldi dilim,
Əyildi qamətim, büküldü belim,
Nə qazamat, nə qalalar çəkmişəm.

İnsanların güzəranının ağırlığı, ailəni dolandırmaq üçün insanların bir qarın çörək uğrunda apardığı mübarizə sənətkarlara edilən müraciətləri də azaldır. Ona görə məşğul oduğu dülgərliyi də ona köməyə çatmır, dolanışığı xeyli çətinləşir:

Abdulla, bir yana yetmədi dadım,
Hayana düşdümsə, yandırdı odum.
İtib dülgərliyim, batıbdı adım,
Aranlarda nə alalar çəkmişəm.

Azərbaycanın ayrı-ayrı ərazilərində yaşayan Usta Abdulla nəhayət, 1939-cu ildə Gəncəyə köçür və ömrünün sonunadək orada yaşayır. O, 1943-cü ildə 78 yaşında dünyasını dəyişir və vəsiyyətinə uyğun olaraq "İmamzadə" də dəfn olunur.

***

Usta Abdullanın irsinin toplanması ilə ilk dəfə jurnalist Rəşid Mehdiyev məşğul olub. Onun topladığı şeirlər 1976-cı ildə xalq şairi Hüseyn Arifin redaktorluğu ilə "Gənclik" nəşriyyatında işıq üzü görüb.

Yazdığı dərin mənalı ustadnamələri, təcnis və qoşmaları ilə oxucu və dinləyicilərin diqqətini çəkib, aşıqlar onun şeirlərini məclislərdə böyük həvəslə oxuyublar.

Şeirlərindəki hikmət və aforizm yükünün olması şifahi xalq ədəbiyyatımızın kamil bilicisi, bir çox ustad sənətkar və şairlərin yaradıcılığını əzbərdən bilən, qeyri-adi yaddaşa malik olan Azərbaycan Tibb Universitetinin Epidemiologiya və biostatistika kafedrasının müdiri, Əməkdar elm xadimi, professor İbadulla Ağayevin də ciddi marağına səbəb olub. İbadulla müəllim ustadın irsinin axtarışına çıxıb və onun qohum-əqrəbası, həvəskarları tərəfindən qorunub saxlanılan poeziya nümunələrinin toplanması ilə məşğul olub.

Böyük ustad "Usta Abdulla", "Zodlu Abdulla", "Sənətkar" təxəllüsü ilə də şeirlər yazıb:

Sənətkarın var hörməti,
Çəkməz kimsədən minnəti.
Kimin olsa səxavəti,
Mövlam ona yar deməkdi.

Aparılan araşdırmalar, əldə edilən nəticələr onu deməyə əsas verir ki, Göyçədə yaşayıb-yaradan sənətkarlar Aşıq Alı məktəbinin layiqli davamçıları olublar. Göyçə Aşıq mühiti və ədəbi mühit ustadlar ustadı Aşıq Alı ilə başlayır, sonra onun şagirdləri ilə bu mühit daha da genişlənir və inkişaf edir. Ən çox da adı dillər əzbəri olan və daha çox şöhrət qazanan Dədə Ələsgər tərəfindən daha da möhkəmlənir və coğrafiyası onun istedadlı şagirdlərinin zəhməti ilə böyüməyə başlayır. Demək olar ki, ölkəmizin Qərb zonasında ötən əsrdə yaşayan məşhur aşıqlarımızın böyük əksəriyyəti Alı məktəbinin yetirmələri olub.

Araşdırma aparanda onların ya ustadın şagirdlərinin və ya da şagirdlərinin şagirdlərinin yetirmələri olduğu bəlli olur.

Aşıq Alı ilə Usta Abdullanın ruhunun bir-birlərinə necə yaxın olduğunun, ruhunun bənzərliyini, şeirinin oxşarlığını dəyərli oxuculara da tanış etmək istərdim.

Aşıq Alı deyir:

İstəkli sevgilim, gəldik üz-üzə,
Əlimi əlinə al gülə-gülə.
Çox gəzdim dünyanı seçə bilmədim,
Sənintək gözəli, gəl gülə-gülə.

Usta Abdulla isə yazır:

Gözəlin ləzzəti qaşı, gözdədi,
Atdı, xədənginin oxu bizdədi,
Demək olmaz gəlindədi, qızdadı,
Alıblar canımı bax gülə-gülə.

Və ya

Aşıq Alı digər bir şeirində özünün qısa təqdimatını belə verir:

Əhli-ürfan məclisində üzü ağ
Dolanan diyarlar həyalı mənəm.
Sahibi-hünərdən dərsim almışam,
Mötəbər kəslərdən xəyalı mənəm.

Sahibi-imanda zatı pakıma,
Paki-dil olmaqda adil hakima,
Sənətdə ustadım pür qəmnakıma,
Səxada Hatəmə tay Alı mənəm.

Görün, Usta Abdulla özünün təqdimatını necə verir:

Arif məclisində, qanan yanında
Hər sözü dillərdə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısilə döyülən mənəm.

Yatmış idim bəxtim məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı,
Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.

Aşıq Alı kamil bir sənətkar kimi özünün yaratdığı mükəmməl və oxucunu düşündürən təcnisləri ilə də tərəfimizdən tanınır. Onun istənilən janrda yazdığı poeziya nümunələri insan ruhuna sığal çəkəndir. Bu ruh digər şair və aşıqlarda olduğu kimi, Usta Abdullada da müşahidə olunmaqdadır.

Aşıq Alı yazır:

Nazlı canan, nə şahanə gəzirsən,
Dolandın gülşəni nə gözəl-gözəl.
Bax şümşad əlinə, şəhla gözünə,
Qüdrət xəlq eyləyib nə gözəl-gözəl.

Usta Abdullada da bu xətti görmək mümkündür:

Səyyad olan seyrə çıxar səhraya,
Ya tərlan axtarar, ya dağı gəzər.
Eşqin atəşini salar canına,
Çəkər sinəsinə ya dağı gəzər.

Və ya Aşıq Alı:

Zimistanda tənha qaldım səhrada,
Nuri-çeşmim aparıbdı ar, ayaz.
Ümid etdim bahar gələr üzümə,
İqbalımdan yenə gəldi qara yaz.

Usta Abdulla:

Cavan ömrüm getdi badi-fənaya,
Bundan belə dilim desin ha sini.
Ömür başa yetib, dil tərk olubdu,
Axtarıram ha siratı, ha sini.

Bu cür örnəklərin sayını kifayət qədər artırmaq da olar. Amma bilinən odur ki, bu düyaya bir Usta Abdulla da gəldi və getdi. Doğrudur, əlimizə onun yaratdığı əsərlər tam çatmasa da, gələcəkdə böyük tədqiqat işlərinə səbəb olacaq bir söz xəzinəsini qoyduğuna heç şübhə yoxdur.

Qabil ZİMİSTANOĞLU
Tədqiqatçı-jurnalist,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

GƏRAYLI

ARASINDA

Səhərdən sərvi boylunu,
Gördüm bağlar arasında.
Tüstüm ərşə bələnd oldu,
Yandım yağlar arasında.

Yandım, yetirən olmadı,
Mətləb bitirən olmadı.
Öldüm, götürən olmadı,
Qaldım ağlar arasında.

Eşqin firqətindən çaşdım,
Zülfün toruna dolaşdım.
Abdullayam, sənsiz aşdım,
Gəzdim dağlar arasında.

DÖNDƏRDİN

Oğrun-oğrun baxan gözəl,
Bağrımı qana döndərdin.
Özü gözəl, adı pünhan,
Könlümü şana döndərdin.

Dərdim artıb günbəgündən,
Təltif verir gül üzündən,
Beymürvətin zülmündən
Hökmünü xana döndərdin.

Gəlin, sevgilini tanı,
Bu aləm oduna yanı.
Abdullaya bu dünyanı,
Zalım, zindana döndərdin!

NEYNİM

Ay ağalar, ay qazılar,
Mən bu dərdə dözüm, neynim?!
Düşdüm qəmin dəryasına,
Qəvvas olum üzüm, neynim?!

Dərdim olubdu ziyada,
Bir yetən yoxdur fəryada.
Arsız, qəmli bu dünyada,
Heç bilmirəm gəzim, neynim?

Abdulla düşüb azara,
Dərdi yetib səd-hazara.
Qoyan yoxdu bir məzara,
Öz əlimlə qazım, neynim?

QƏZAM MƏNİM

Qulaq asın, a yoldaşlar,
Çoxdu qəhri-qəzam mənim.
Xəstə düşdüm qürbət eldə,
Artıq olub cəzam mənim.

Bir zaman gəzdim havalı,
Götürdüm muzdu, bavalı,
Qonşum imiş un çuvalı,
Dostum imiş qazan mənim.

Mənim işim ahu-zardı,
Bu gen dünya mənə dardı,
Abdullayam, günahkardı
Dəftərimi yazan mənim.

OLAYDI

A yoldaşlar, a qardaşlar,
Son günümüz ağ olaydı.
Deyib-gülüb, danışaydıq,
Damağımız çağ olaydı.

Fələk bir dövran quraydı,
Könlümdən xəbər verəydi.
Məxluqat xoş gün görəydi,
Ürəklər yumşaq olaydı.

Qoyun, quzu çöldə yata,
Örüş malı güclə tuta.
Bağ-bostanda inci bitə,
Bir kökdə yüz tağ olaydı.

Yeyib-içib gəzdiyimiz,
Şəhdi-şəkər əzdiyimiz,
Süd gölündə üzdüyümüz
Gah aran, gah dağ olaydı.

Peymanası dolan zaman,
Gülün rəngi solan zaman,
Dünya cənnət olan zaman,
Abdulla da sağ olaydı.

MƏN

Deyilənlər gerçəkdimi,
Doğurdanmı dəliyəm mən?
İstəyirəm ağıllının
İç üzünü əliyəm mən.

İşləyirəm hər bir öydə,
Mənə birdir kasıb, bəy də.
Haqqım olsa daşda, zəydə,
Hamısına bəliyəm mən.

Mən ustayam çalışıram,
Dəzgahımla yarışıram.
Qan-tərimə qarışıram,
Abdullayam, ləliyəm mən!

YERİ

Bir zamanlar at oynadıb,
Gəzdi bəylər bizim yeri.
El oynadı bu qəflətdən,
Heç qalmadı dözüm yeri.

Allahdan var bir köməyim,
Haqdan düzəldi diləyim.
İşıq tapıbdır eynəyim,
Yaxşı seçir gözüm yeri.

Yerdən duman çəkilibdi,
Torpaq bizdə əkilibdi.
Qaçaq-quldur çəkilibdi,
Bir dolanım, gəzim yeri.

Qırdıq bəyi, tutduq xanı,
Onlardan göstər bir, hanı?
Sən gəl dindir Abdullanı,
Yaxşı ötür sözüm, yeri!

DEMƏKDİ

El nəzəri üstündəsə –
Sənə dövlət, var deməkdi.
Baxma düşüb dən saqqala,
Dağ başında qar deməkdi.

Kəc baxarsa sənə zaman,
Dözməlisən ovsanmadan.
Qəfəsdəsə tülək tərlan,
Oylağında sar deməkdi.

Fikir vermə hədyan sözə,
Şəfa verər elm gözə.
Babalardan qalan bizə
Namus, qeyrət, ar deməkdi.

Şər işlərdən gəl ol qıraq,
Həqiqət axtaran qoçaq.
Qulağınla eşit ancaq,
Ya gözünlə gör deməkdi.

Sənətkarın var hörməti,
Çəkməz kimsədən minnəti.
Kimin olsa səxavəti,
Mövlam ona yar deməkdi.

GƏLİRƏM MƏN

Ala gözlü, nazlı dilbər
Dedi: dur get, gəlirəm mən.
Dedim: ay qız, dərdim çoxdu,
Dedi: dərman bilirəm mən.

Göldən uçurdum sonanı,
Bu yerdə qoydum binanı.
Gündə gördüyüm cananı,
Görməyəndə ölürəm mən.

Bağçalarda barım ola,
Alma, heyva, narım ola,
Bir dərd bilən yarım ola,
Ona qurban olaram mən.

Vəfası olmaz yalanın,
Ağlı olmaz çox gülənin,
Abdullayam, dərd bilənin
Yüz il keçsə quluyam mən.

DİLBƏR

Bir ərzim var qulluğuna,
Ay xalları qoşa dilbər.
Xəstə canım qurban olsun
Həm gözə, həm qaşa dilbər.

Ağlamışam, gülməmişəm,
Göz yaşımı silməmişəm,
Qədirini bilməmişəm,
İndi düşdüm başa, dilbər.

Axır gözdən qanlı yaşım,
Nə qohumum, nə qardaşım...
Eşq ucundan fəqir başım
Dəydi daşdan-daşa, dilbər.

Eynim sənsən, qanım sənsən,
Din ilə imanım sənsən,
Cəsədimdə canım sənsən,
Ərkin çatır başa, dilbər.

Abdullayam, çox ağladım,
Sinəm başını dağladım.
Adına dastan bağladım,
Bir sən gəldin xoşa, dilbər.

QOŞMALAR

HARDA MƏN

İnsan odur fikirləşə düz seçə,
Kimnən gəzim, necə gəzim harda mən?
Uyğun ola yoldaşlarım özümə,
Danışanda utanmayam orda mən.

Gələndə məclisə biləm yerimi,
Niyə duram görən kimi birini.
Ya danışam, ya da verəm sirrimi,
Cəhl düşə, məğlub olam zorda mən.

Gərək hörmət edəm özüm özümə,
Danışanda sərhəd qoyam sözümə.
Uzanmaya qoşa barmaq gözümə,
Çırpınmayam balıq kimi torda mən.

Mən sevirəm səxavəti, izzəti,
Bir edənə beş edərəm hörməti.
Mənə görə biri çəksə zəhməti,
Çatdıraram üryan olsam qarda mən.

Abdullayam, hər hesabı qanmışam,
Haqsızlığa alışmışam, yanmışam.
Çoxlarını candan əziz sanmışam,
Yaxın gələn heç görmədim darda mən.

QARIŞAR

Mərdlərin içindən seçin namərdi,
İlqarsızdı gedib elə qarışar.
Kökündən çıxardın qara tikanı,
Heyifdi, ətirli gülə qarışar!

Alçaq adam qarışdırar aranı,
Bayquşda adətdi sevər viranı.
Odun sayma qarağanı, turanı,
Yandırsan, köz olmaz, külə qarışar.

Ağac bəlli olar yaxşı barından,
İgidlər seçilər düz ilqarından.
Abdulla, qal qurma dağlar qarından,
Yazda gün əridər, selə qarışar.

BAD OLAN VARMI

Arifi-müəzzəm, ey nuri didəm,
Mənim təki ömrü bad olan varmı?
Qohumdan, aşinadan, dostdan, tanışdan,
Xəyalı dolaşıb yad olan varmı?

Hər kəs özü mətləbini qanmıyan,
Dünya cifəsini nəhi sanmıyan.
Fələk əli dəyib çərxi dönməyən,
Ləzzəti dahanda dad olan varmı?

Dağlar qan ağlayır düşüb borana,
Daha bundan sonra çətin yarana,
Göyçə qana batsın, qaldı virana,
Daha Ələsgərtək ad alan varmı?

Mənim üçün nə ata var, nə ana,
Arif gərək bu mətləbi tez qana.
Minək qəm atını, çıxaq cahana,
Görək bu dünyada şad olan varmı?

Hac Əliş ağanı talan eylədin,
Səməd bəyi gördün yalan eylədin,
Bizi viran bağa bağban eylədin,
Qan ağla, sızılda, ha dolan, varmı?

Günbəgündən bağlayıram mən vərəm,
Könül sakit olub heç tapmır aram.
Nə Şirin, nə Fərhad, nə yazıq Kərəm,
Abdullatək cismi od alan varmı?

QALAMAQDADI

Yenə qəm ləşkəri hücum gətirib,
Sinəmi eşq odu qalamaqdadı.
Hərə bir tərəfdən qılınc götürüb,
Könlümün evini talamaqdadı.

Anlamışam bu fələyin fəndini,
Ömrümün arxının sökür bəndini.
Çinləyib əlində qəm kəməndini,
Atıb gərdənimə dolamaqdadır.

Çalışır insanı sala fəndinə,
İnanmıram müxənnətin andına.
Qoyub Abdullanı qəm sapandına,
Atacaqdı bir gün bulamaqdadı.

NİŞANASI

Duman, çiskin qalxdı ərşi-səmaya,
Görünmür gözümə dağ nişanası,
Əcəl gəlib, ömür gedib fənaya,
Yoxdur bu yerlərdə ağ nişanası.

Duman, çiskin məni qara yetirdi,
Çəkdi Mənsur kimi dara yetirdi.
Müxənnət cismimə yara yetirdi,
Yoxdu bədənimin saf nişanası.

Fələk bərhəm etdi, pozdu növrağı
Dağ üstən çəkibdi üstümə dağı,
Bülbül fəğan edər, dolanar bağı
Görəndə gül üstə zağ nişanası.

Dastan olum, necə düşüm dillərə?
Məcnun kimi fələk saldı çöllərə.
Yandı qara bağrım döndü küllərə,
Yoxdu ürəyimdə yağ nişanası.

Abdullayam, əlim əldən üzüldü,
Seyraqublar dörd yanıma düzüldü.
Fələk vurdu növrağımız pozuldu,
Yoxdu gülşənimdə bağ nişanası.

YAZ, QƏLƏM, İNDİ

İzin versən durum, dönüm başına,
Mənim ərzi-halım yaz, qələm indi.
Gəl rəhm eylə gözdən axan yaşıma,
Dostun zəhmətinə döz, qələm, indi.

Dostun həsrətindən olmuşam Sənan,
Misirdə satılır Yusifi-Kənan,
Dilimdə əzbərdi, könlümdə pünhan,
Eyləyib dərdimi yüz, qələm, indi.

Hər nə söz deyilsə götürən sənsən,
Könlüm mətləbini bitirən sənsən,
Yaxşını yamana yetirən sənsən,
Yaraşır şəninə söz, qələm, indi.

Sən lövhi-məhvuzdan olubsan aşkar,
Sənə nəzir qılıb qəni-kirdigar.
İsmim Abdulladı, özüm sənətkar,
Sizə ümidvarıq biz, qələm, indi.

ÇƏKMİŞƏM

Əyyami-qəzada, dəhri-dünyada,
Bilirsənmi, nə bəlalar çəkmişəm?!
Ahu-zar, müsibət dünyadan çıxıb,
Leyli-nahar nə nalalar çəkmişəm.

Dağıldı mahalım, pozuldu elim,
Tükəndi dövlətim, gödəldi dilim,
Əyildi qamətim, büküldü belim,
Nə qazamat, nə qalalar çəkmişəm.

Abdulla, bir yana yetmədi dadım,
Hayana düşdümsə, yandırdı odum.
İtib dülgərliyim, batıbdı adım,
Aranlarda nə alalar[1] çəkmişəm.

GÖR

Aşiq olub gəzən diyarbadiyar,
Məddəsiz, mənasız söz olarmı, gör?
Eşqin atəşinə giriftar olan,
Mənim kimi dərdi yüz olarmı gör?

Bir katib gərəkdir yaza, oxuya,
Ətir verə müşkü ənbər qoxuya.
Bir igidin oxu daşa toxuya,
Onun dərdi-qəmi az olarmı gör?

Əvvəl fikir olar işin gerisi,
Hər mətahın olar öz müştərisi.
Bezin haşiyası dovşan dərisi,
Xorasan məxməri xəz olarmı gör?

[1] Alaq otu

Abdulla istəyir qışı yaz ola,
Açıla bir könül sərəfraz ola.
Bir adam əzəldən kələkbaz ola,
Onun da ilqarı düz olarmı gör?

AĞLAMA

Nə sevda tapıbsan, divanə könlüm?
Əlbət gedənlərin gələr, ağlama.
Yaradan yar olar, bir nəzər salar
Nabələd yolları bular, ağlama.

Nə gəzə bilmirsən, dözə bilmirsən,
Oxuya bilmirsən, yaza bilmirsən.
Tutub səni qəhri-qəza bilmirsən,
Ağlayanlar bir gün gülər, ağlama.

Bu gen dünya Abdullaya dar olsa,
Zərrəcən nəzəri kirdigar olsa,
Eynin yaşı çeşmələrdən car olsa,
Bir gün göz yaşını silər, ağlama.

DİLİM-DİLİM

Aşıq, nə yar deyib fəğan edirsən?
Titrəyir ağzımda, yar, dilim-dilim.
Baş yastıqda, gözü yolda qalmışam,
İstəyir dağlardan qar, dilim-dilim.

Eşqin firqətindən bəlkə çaşmışam?!
Dərd əlindən başım alıb qaçmışam.
Onun həsrətindən xəstə düşmüşəm,
İstərəm köksündən nar dilim-dilim.

Heç bilmirəm nə xəyala dalıbsan?
Haldan salıb ixtiyarım alıbsan.
Yazıq Abdullanı gözdən salıbsan,
Al xəncəri, məni yar dilim-dilim.

YOL KƏNARINDA

Səhər şikarında çıxdı qarşıma,
Bir cüt gözəl gördüm yol kənarında.
Bülbül güldən ötrü bağı dolanır,
Ömrünü qoyubdu gül kənarında.

Məhbus edir göydə gəzən quşları,
Dağıdır xəyalı, alır huşları,
Ucu əbrişimli siyah saçları,
Cığa pərvazlanır tel kənarında.

Bağban olan gül becərər bağlarda,
Xəstə olan gözü qalar çağlarda,
Ovçu olan gedər gəzər dağlarda,
Abdulla dolanır el kənarında.

MƏNƏM

Arif məclisində, qanan yanında
Hər sözü dillərdə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısilə döyülən mənəm.

Taqət olmaz qəriblərin dizində,
Mürvət olar mərd igidin özündə.
Səksənində, doxsanında, yüzündə,
Qəflət yuxusundan ayılan mənəm.

Yatmış idim bəxtim məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı,
Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.

HƏCƏR

Səhər vaxtı qəfil çıxdı qarşıma,
Sandım sənsən bağçalarda gül, Həcər.
Tərpənəndə “zey-zey” deyir zəbanın,
Canım alıb dəhanında dil, Həcər.

Sən gələn ocağa canım sadağa,
Eyni zənbur şan çəkibdir dodağa.
Buxaq büllur, gül yapışıb yanağa,
Zənəxdan üstündən düzüb tel Həcər.

Kəkliyin gözləri, Həcərin qaşı,
Sinəmə salıbdı yanar ataşı.
Leylinin vədəsi, çeşmənin başı,
Məcnun kimi mən gözlərəm yol, Həcər.

Xəstə olan yalvaracaq sağlara,
Çağ gəzəni çağ yetirsin çağlara.
Təşrif buyur gedək qoşa bağlara,
Pişvazına gəlsin bizim el, Həcər.

Abdullayam, eşq oduna qalannam,
Vardan keçib dost yolunda talannam.
İzin versən qulluğunda dolannam,
Qəbul etsən ollam sənə qul, Həcər.

SANINCA

Səxavətsiz dövlət nəyə gərəkdir?
Əgər yığsan bu dünyanın sanınca.
Mərifət lazımdır bir insan üçün,
Hökmü olsa Dağıstanın xanınca.

Qəlbimdə gəzirəm şeyxi-Sənanı,
Belə qərar verib Kərəmin-kanı.
Qanmazın yanında qananın canı
Üzüləcək, o da mətləb qanınca.

Abdullayam, dostla ara dəyibdi,
Çünki olub bəxti qara, dəyibdi.
Sinəmə hesabsız yara dəyibdi,
Qərar tutsa bir zənburun sanınca.

YAXŞIDI

Qədəm qoyub bir məclisə varanda,
Həcv-hədyan sözdən “bəli” yaxşıdı.
Namərdin bir kəlmə acı sözündən,
Mərdin şillə çəkən əli yaxşıdı.

İyiddə var olsa, ürəkli olar,
Ağlı dürüst olan gərəkli olar.
Kim olsa vətəndə dirəkli olar,
Bihudə gəzməkdən ölü yaxşıdı.

Abdulla elmdə nabələd deyil,
Arif məclisində xəcalət deyil.
Özgəyə gülməklik bir adət deyil,
Yəqin, qurumsaqdan dəli yaxşıdı!

BİLƏ

Hər yetən gözələ gözəl demərəm,
Gözəl odur yar qədrini yar bilə.
Bülbül güldən ötrü bağı dolanır,
İnsaf deyil ləzzətini xar bilə.

Şeyda bülbül yuvasından çaşanda,
Eynim yaşı mövca gəlib coşanda.
Sevgi sevgisindən ayrı düşəndə,
Sağlığı canına ahu-zar bilə.

Hər kəs özü çəkər xəcalətini,
Görmədim namərdin ədalətini.
Dost gərək dostunun əmanətini
Saxlaya yanında, yadigar bilə.

Bil, Abdulla dəryalara dalıbdı,
Şikəstə könlünü zülmə salıbdı.
Aşıq qardaş, əlac sənə qalıbdı,
Dost gərək dostunu ümidvar bilə.

ŞƏLALƏSİNDƏN

Ey dost, hüzuruna salamlarım var,
Bu şəfəq könlümün şəlaləsindən.
İstərəm adına bir dastan quram,
Dağlar nərgizindən, dağ laləsindən.

Fikrin həmdəmidi ləli-gövhərin,
Sözün qiymətlidir, düşünsən dərin.
Nə gözəl yaranıb misilsiz sərin,
Yaqutun, mərcanın dürdanəsindən.

Parlaq elmlərin dönüb çırağa,
Möhtac deyil nə piltəyə, nə yağa.
Arzum budur, bir gün düşmə irağa,
Sənətin, ilhamın piyaləsindən.

Çox qalandım üst-üstündən közə mən,
Dərd demədim doxsana mən, yüzə mən.
İstərəm hayqıram, çıxam üzə mən,
Həyatın dəhşətli məngənəsindən.

Ey mənim sədəfim, mərcanım, dürrüm,
Bağınız, bağçanız solmasın görüm!
Ömrünə calansın Sənətkar ömrüm,
Qardaşlıq adının dost bərəsindən!

ŞİRİNMİŞ

Bunu yaxşı bilir arif olanlar,
Qürbətdə yar sevmək nə şirin imiş.
Bir oğul atadan artırsa işi,
Əcəb, el içində afərin imiş.

Məcnun kimi ov quşunu ovladım,
Zəncir saldım dost kuyində oynadım.
Dərin, dayaz dəryaları boyladım,
Hicranın dəryası nə dərin imiş!

Nadan olub xeyir-şərin qanmayıb,
Hədər bu dünyanı səhli sanmayıb,
Dünyanın varına heç aldanmayıb,
Abdullanın könlü nə sərin imiş.

GƏRƏKDİ

Dörd hərifnən namə yazdım gözələ,
Vəsfi düşə bu mahala gərəkdi.
Rey qaşların şəhd eyləyir hər yana,
Gözləri nun təki ala gərəkdi.

Can gərəkdi eşq oduna qalana,
Fələk verdi cavan ömrüm talana.
Əl köksündə sübhə kimi dayana,
Ah çəkə, göz dikə yola gərəkdi.

Məni uğradıbdı bir olmaz dərdə,
Nahaq pünhan sirrin verdin namərdə.
Sinədən gen ola, dəhanı xırda,
Alıb göndərəsən çala gərəkdi.

OLMAZ-OLMAZ

Çoxları insanı sevər üzündən,
Hər sevən gözəldən yar olmaz-olmaz.
Alçalmış, tapdanmış məhzun dağların,
Yay vaxtı başında qar olmaz-olmaz.

Yaxşıya bəd demə, düz demə nəsə,
Çalış toxunmasın sözün heç kəsə.
Kökü yerdə olub günəş görməsə,
Hər bitən ağacda bar olmaz-olmaz.

Şirə döşürsən də sən ətək-ətək,
Arı bal toplamaz olmasa pətək.
Uca ağaclarda bar olmayantək,
Namussuz sifətdə ar olmaz-olmaz.

Elin şadlığında deyib-gülməsə,
Gəzib dağlarını düzə gəlməsə.
Sənətin qədrini duya bilməsə,
Könül aşinası tar olmaz-olmaz.

Sənətkar, sözün yaz, durma fəth eylə,
Gəzib yaylaqları sən gülə-gülə.
Fəqət bağlanmasan obaya, elə,
Bil, sözün dillərdə car olmaz-olmaz.

YETƏR

Bahar fəsli yaz ayları gələndə,
Açılarmı sənin kimi gül, Yetər?!
Ay qabağın, qələm qaşın, gül üzün,
Nə şirindi dəhanında dil, Yetər!

Qəzanın qəhrindən yetmişəm cana,
Vəsfini yazıram, düşsün cahana.
İstəyirsən məni atdır ümmana,
İstəyirsən qoy aparsın sel, Yetər!

Ala gözlərinə mayıl olmuşam,
Dostun zəhmətinə qayıl olmuşam,
Eşqin firqətindən zayıl olmuşam,
Bir yetişib dərdi dilim bil, Yetər.

Dal gərdənə həmayıllar taxıbsan,
Neçə canlar eşq oduna yaxıbsan,
Türfə gözəllərlə seyrə çıxıbsan,
Sana baxır, köks ötürür el, Yetər.

Abdulla ömrünü veribdi bada,
Pərvanə cismini yandırdı oda.
Ölüm haqdı insan üçün dünyada.
Vəfa yoxdu bu dünyada, bil, Yetər.

VAR

Əziz dostum, xəbər alsan halımı,
Deyə bilməm, məni dərdə salan var.
Daha bundan artıq tab eyləmərəm,
İntizaram, gözü yolda qalan var.

Bir rəhm eylə gözdən axan yaşıma,
Təcüb qaldı cərxi-fələk işimə.
Hərdən-hərdən gəldim yollar başına,
Dedim, bəlkə yar yanından gələn var.

Göz yaşımla namə yazdım canana,
Aman, ayrılığı kar etdi mana.
Axdı eynim yaşı döndü ümmana,
Qəvvas olub dəryalara dalan var.

Əzəl başdan mən yanıram, yar mənim,
Qızılgülüm niyə qucur xar mənim?
Bu səbəbdən intizarım var mənim,
Məndən qeyri həsrətindən ölən var?

Uşaqlıqdan çox çəkmişəm cəfasın,
Seyraqublar niyə sürsün səfasın?
Abdullanın görməmisən vəfasın,
Nazlı yarın sözlərində yalan var.

XANIM

Dürdanəsən, xoş gəlibsən cahana,
Qaşların bənzəyir kamana, xanım.
Söylərəm vəsfini bil ki, hər yana,
Daşıb qərq etməsin ümmana, xanım.

Bəxtəvər xəlq edib səni Yaradan,
Bəzəyin, düzəyin şaldan, xaradan.
Silkinib sonatək çıxsan aradan,
Elə bil gələrəm imana, xanım.

Mənim can deməyim layiqdi sana,
Büllur buxağından pay çıxar mana.
Bu qoca vaxtımda gəlləm imana,
Abdulla yolunda divana, xanım.

EYLƏSİN

Bir kimsə yox izhar edəm dərdimi,
Deyəm durub mənə dərman eyləsin.
Rəhm qılsın bu aşiqin halına,
Şikəstə könlümü xəndan eyləsin.

Gecə-gündüz çağırıram mən Tanrı,
Könlüm mətləbini sən yetir barı.
Hər kimin ki, vardı vəfalı yarı,
Şirin canı ona qurban eyləsin.

Mən fəqirə çox eylədin sitəmi,
Günbəgün artırdın möhnəti, qəmi.
Xar olubdu qızılgülün həmdəmi,
Şeyda bülbül ahu-fəğan eyləsin.

Sənə qurban olum gözəllər xubu,
Mina gərdən, sinə mərmər, qədd tubu.
Bir aşiqin ayrı düşsə məktubu,
Yaxa yırtsın dildə giryan eyləsin.

Ağ üzə düşübdü siyah xalları,
Əcəb açılıbdı qönçə gülləri.
Sənətkar der: müşkü-ənbər telləri,
Töksün sədri üstə əfşan eyləsin.

YAVAŞ-YAVAŞ

Səhərdən bir gözəl oxladı məni,
Dağıldı üzünə tel yavaş-yavaş.
Dedim bir kərəm et, dərdimi deyim,
Qoymadı açmağa dil yavaş-yavaş.

Əllər incə, tellər incə, dil incə,
Canım çıxdı dəstinə gül verincə.
Cəfa çəkib belə gözəl görüncə,
Mən deyim halımı bil yavaş-yavaş.

Belə gözəl doğmuyubdu anası,
Dağlar maralıdı, çöllər ahusu.
Budur Abdullanın səndən arzusu,
Bir əyləş yanımda, gül yavaş-yavaş.

GƏLSİN

Canım qasid, Məcnun kimi gözlərəm,
Get yara deginən, bulağa gəlsin.
Mən bülbüləm güldən ötrü yanıram,
Gül dərmək istəsə bu dağa gəlsin.

Ala gözlərindən badə içmişəm,
Alışmışam, eşq oduna bişmişəm.
Onun həsrətindən xəstə düşmüşəm,
Xəstəni yoxlasa, otağa gəlsin.

Aman qasid, necə yardan küsüm mən,
Firqətindən xəzan kimi əsim mən.
Malım yoxdur ona qurban kəsim mən,
Canımdır yolunda sadağa, gəlsin.

Abdullayam, canım ona qurbandı,
Eşqin atəşinə bədənim yandı.
Azad yaşayışdı, gözəl dövrandı,
Yoxdur ona qorxu-qadağa, gəlsin.

TƏKİ

A beymürvət, cavan qəddim əyibsən,
Alıbsan canımı alası təki.
Qələm qaşın, ay qabağın, gül üzün
Açılıb dağların lalası təki.

Dal gərdənə həmayıllar taxıbsan,
Başa vəsmə, gözə sürmə yaxıbsan.
Müjgan oxun sinəm üstə çaxıbsan,
Alıbsan Xeybərin qalası təki...

Baxtımın qapısın bağlar qoyubsan,
Çəkib sinəm üstə dağlar qoyubsan.
Sən ki, Abdullanı ağlar qoyubsan,
Çəkirəm Kərəmin nalası təki.

YAVAŞ-YAVAŞ

Ala gözlüm, halallaşaq ayrılaq,
Yadıma düşübdü el yavaş-yavaş.
Can ayrılır, cəsəd qalır viranə,
Aç siyah zülfünü, yol yavaş-yavaş.

Götürüb dəstinə gəzdirsən ağı,
Mən olmuşam ala gözün dustağı.
Məhşər, qiyamətdi ayrılıq çağı,
Dolansın boynuma qol yavaş-yavaş.

Sərinə qoyubsan qızıldan tacı,
Düşüb Abdullanın bil ehtiyacı.
Müddətdi xəstəyəm, dəhanım acı,
Süzülür ləbindən bal yavaş-yavaş.

ZÜLFLƏRİN

O qızıl şananı alıb dəstinə,
Nazik əllərinlə dara zülflərin.
Çin-çin eylə dal gərdənə həmayıl,
Məlhəm eylə, bağla yara zülflərin.

Gözəl görməmişəm belə bir maya,
Qoy söz deyim, a gərdəni minaya.
Camalın bənzətdim günəşə, aya,
Saldı məni ahu-zara zülflərin.

Bu baxışın neçə canlar alacaq,
Almasa da qeyri hala salacaq.
Şahmar kimi çoxlarını çalacaq,
Nə göyçək yaraşır qara zülflərin.

Mələklər şahısan, behişt hurisi,
Elə bildim sənsən göylər pərisi.
Bədirlənmiş aydı üzün şöləsi,
Rəhm qılsın günahkara zülflərin.

Sənətkar Abdulla oldu divana,
Kafər görsə o da gələr imana.
Mən ata, sən bala, düşmə gümana,
Çəkdi məni bu bazara zülflərin.

ANA BİLMƏSİN

Gedən qasid, sən Allahı sevirsən,
Elə gəlsin getsin, ana bilməsin.
Arif çoxdur məhəbbəti anlayar,
Pünhan gəlsin, bizim xanə[1] bilməsin.

Qəvvas olan dəryalardan daş tapar,
Qəlbi yanan rüxsarı yaş tapar,
Arif çoxdur məclisində baş tapar,
İşarət anlayıb, qana bilməsin.

[1] Ev

Seyraqublar dost yoluna düzülər,
Ah çəkməkdən bağrım başı üzülər.
Bir muyu üzülsə, canım üzülər,
Elə sığal çəksin, şana bilməsin.

Abdullayam, necə dözüm fərağa,
De, təşrif buyursun, gəlsin otağa.
Cəllad qaşlarına canım sadağa,
Müjganları çatıb qana, bilməsin.

GÜLƏ-GÜLƏ

Zimistan zəhmətin çəkəndə sənin,
Yenə aşiq olub ağ gülə-gülə.
Dolanıb bağçanı, gəzirdi bağı,
Çəkib sinəsinə dağ gülə-gülə.

Gözəlin ləzzəti qaşı, gözdədi,
Atdı, xədənginin oxu bizdədi.
Demək olmaz gəlindədi, qızdadı,
Alıblar canımı bax gülə-gülə.

Qaşın cəllad, gözün mənnən yağıdı,
Qoynun içi səkkiz cənnət bağıdı,
Yazıq Sənətkarın məlul çağıdı,
Bilməyib yandırır sağ gülə-gülə.

ÇAĞINDA

Bir ox vurdun ürəyimin başından,
A beymürvət günün batan çağında.
Naşı ovçu durub ov bərəsində,
Maral gəldi, keçdi atan çağında.

Doldurub verəsən içək sağıdan,
Qurtarmadım bu beymürvət yağıdan.
Səni nist olasan məclis dağıdan,
Şirin ixtilatın tutan çağında...

Qəfildən canıma saldın azarı,
İl müddət çəkirəm bu ahu-zarı.
Açılsa Yusifin Firdos bazarı,
Sən al Abdullanı satan çağında.

AXTARIRSAN

Ahu nigah, ay həsrəti xumarın,
Dolanıb bağlarda bar axtarırsan.
Gözü yolda qalan intizarın var,
Ya da xəstə üçün nar axtarırsan.

Hayana baxırsan, tökürsən yaşı,
Sənin bu ah-nalən yandırır daşı.
Sənə kar eyləyir eşqin ataşı,
Ya da pərvanəsən, nar axtarırsan.

Gözəl, sənin bu halını görəndə,
Suvar oldu qəm qəndəli səməndə.
Ya istəkli dostun keçib kəməndə,
Ya müşkülə səbəbkar axtarırsan.

Yazıq Abdullayam, yetmədim nəfə,
Qəm yazdım dəftərə yenə bir səhfə.
Züleyxasan, eşqin düşüb Yusifə,
Ya özünə layiq yar axtarırsan.

QADAĞA DÜŞDÜ

Bir maral dalınca ovçutək düşdüm,
Getdi, dostlar qovdu, o dağa düşdü.
Mən yarı görməkçün canımdan keçdim,
Bivəfa yar məndən uzağa düşdü.

Təbib yoxdu, qövr eləyir yaralar,
Gül irəngim günbəgündən saralar.
Seyraqublar vurdu, dəydi aralar,
Onçu[1] dost yoluna qadağa düşdü.

[1] Onun üçün

Dost ürəyi bir-birinə qatılı,
Haqdan başqa bilən yoxdu batılı.
Sənətkar föcuna qürrə atılı,
Abdulla dostlara sadağa düşdü.

QƏZA BAX

Nagah yerdən sərsər əsdi sərimə,
Necə tutdu məni qəhri-qəza, bax!
Bir ox dəydi keçdi balu-pərimə,
Pərvanətək məni saldı gözə, bax.

Geyinib məclisdə dolanır ağı,
Mən olmuşam ala gözün dustağı.
Yenə məclisimdə gəzdirir ağı,
Yar tutubdur bir əlində məzə, bax.

Abdulla qocalıb gör nə söyləyir,
Təzdən eşqə düşüb, “mənəm-mən” – deyir.
Qəlbən dost olanlar belə söyləyir,
Eşqə düşüb, Sənan olub təzə, bax!

BU

Dedim: Tutu, bu sallanış nədəndi?
Dedi: ümmanların sonasıdı bu.
Dedim: ağ əllərin əlvan bəzənib,
Dedi: öz kefimin hənasıdı bu.

Dedim: Tutu, sən də sığal ver telə,
Dedi: gəl mail ol bu şirin dilə.
Dedim: həmdəm olaq verək əl-ələ,
Dedi: qocalığın binasıdır bu.

Dedim: Tutu, atma müjgan oxunu,
Dedi: verrəm müşkü ənbər qoxunu,
Sənətkar Abdulla alar yuxunu,
Dedi, yar yatmağın sinəsidir bu.

GÜLƏ-GÜLƏ

Uca boylu, şirin dilli bəxtəvər,
Qalırsan qaydıma qal gülə-gülə.
Gecə-gündüz mən çəkirəm ahu-zar,
Alırsan canımı al gülə-gülə.

İnciyəm gözəlin beyilqarından,
Hazar müxənnətin etibarından.
Hicran sənətindən, qəm anbarından,
Yükləyibsən mənə bol gülə-gülə.

Əyləşəydim, yar yolunda qalaydım,
Yalvaraydım, bir könlünü alaydım.
Abdullayam, bir az cavan olaydım,
Salaydım boynuna qol gülə-gülə.

GÖRƏNDƏ

Könül cavanlaşır əlli sinində,
Sevgili alagöz yarı görəndə.
Xəstə könlüm görün nə hala düşür,
Yay zamanı dağda qarı görəndə.

Qəsd eyləməz, zalım, insan insana,
Dərdindən, vallahi gəlmişəm cana.
Ovçunun ürəyi dönməzmi qana,
Tordan uçan bir şikarı görəndə.

Abdulla, könlündə dərd çatıb yüzə,
Qəsdin yoxsa məni salmaqdı düzə?
Çirkinlər rübəndi bürüyər üzə,
Sən bürünmə vəfadarı görəndə.

TƏCNİSLƏR

A YARA DƏYDİ

Qəfil bir ox atdın, keçdi sinəmdən,
Dərdindən cismimə a yara dəydi.
Pəhləvan gəzirdi meydan içində,
Keçdi pəhləvandan əyyara dəydi.

Gecə uzun, təbi nazik, yaralı,
İnsaf deyil qurma mənə yar alı,
Yar incisə yar könlünü yar alı,
Bilmirəm nə dedim, a yara dəydi.

Yaxşı dostun xəyalını ay ara,
Həftə dedin, necə keçdi, ay ara.
Təbib qarşı gəlsə yetər a yara,
Təbib qarşı gəldi, a yara dəydi.

Düzdürübsən dəhanına, yar, inci,
Al xəncəri, bağrım başın yar, inci.
Abdulladan olmaz sənə yar inci,
Seyraqublar vurdu, ay ara dəydi.

A YAZI BELƏ

Nəzər əyiləndə, iqbal yatanda,
Qananı qanmaza a yazı belə.
Kimin zimistanı novbahar keçir,
Məni də yandırır, a yazı belə.

Öz əlinlə qoysan məni qara sən,
Al üstündən bağlayıbsan qara sən,
Sənsən salan bu zulmata qara sən,
Dağıt duman, çiskin, ayazı belə.

Həqiqi dost yandan beləmi keçər,
Kəmərin toqqası beləmi keçər.
Abdullanın ömrü beləmi keçər,
Qışı dərdi möhnət, a yazı belə.

YAY İNDİ

Ovçusan, durubsan ov bərəsində,
Qur tələni, maral keçdi, yayındı.
Əlif qəddin, ay qabağın, gül üzün,
Cəllad qaşın çəkilibdir yay indi.

Ərş üzündə Gün dolanıb üzərmiş,
Müxənnətin dolandığı üzərmiş.
Dərdin məni incəldərmiş, üzərmiş,
Ya bu gündü, ya sabahdı, ya indi.

Abdullayam, qayıl oldum ay aza,
Katib gərək mənim dərdim a yaza.
Zimistanda ilqar verdin a yaza,
A beymürvət, gözləyirəm yay indi.

YAD AĞI GƏZƏR

Səyyad olan seyrə çıxar səhraya,
Ya tərlan axtarar, ya dağı gəzər.
Eşqin atəşini salar canına,
Çəkər sinəsinə ya dağı gəzər.

Dildə zikr eyləyən Sinaya gələr,
Ayaqdan can çıxar sinaya gələr.
Əzrayıl qeyznən sinaya gələr,
Yığılar qəssalar yad ağı gəzər.

Dağda sehr eyləyən şir indi hanı?
Dahanda ləzzəti şirinidi hanı?
Sənətkar axtarır: Şirindi, hanı?
Qatar ləzzətinə yad ağı gəzər.

LEYLİNİ YAZDI

Bihudə dolandım, əfsanə gəzdim,
Canım dost yolunda leylini yazdı.
Etibar kəsilib, ilqar pozulub,
Əvvəlki məhəbbət, Leyli niyə azdı?

Qəmər qan ağladı, neştər yeridi,
Yaram sızıldayır, neştər yeridi,
Leylinin qoluna neştər yeridi,
Məcnun qanı çöldə Leylini yazdı.

Dost olan dostunu çəkməzdi dara,
Al şananı siyah zülfün di dara.
Həsrət qoymaginən didar-didara,
Görən dost rahindən bəs niyə azdı.

Həya çəkib daldalanma sən ara,
Həqiqi dostunam, kəsmə sən ara.
Abdullanın xəyalını sən ara,
Gəzir şəmsi təki Leylini yaz di!

SALMAS

Gəzdim İsfahanı,Vanı, İranı,
İndi də qalıbdı ay ağa Salmas[1].
Zənbur[2] cəhd eyləyər, dolanar şanı,
Pərvanə cismini a yağa salmaz.

Dost gərəkdi yaxşı dostu sınaya,
Göydən yerə endi neçə sin aya.
Məhəbbət xəncərin qoysa sinaya,
Dost dostu öldürüb ayağa salmaz.

Bilirsənmi danışıram nə sarı,
Bəxt yatanda şan çəkərmi nəs arı?
Sınıq könlüm, nə viran ol, nə sayrı,
Qəssad qəsd eyləyib ay ağa salmaz.

Abdulla, namazın keçdi qəzaya,
Mənim məzarımı kimlər qazıya,
İgid tuş gələndə qəhri-qəzaya,
Dost yapışar əldən ayağa salmaz.

---

[1] İranın Qərbi Azərbaycan ostanında şəhər
[2] Arı

SƏRSƏ QAL İNDİ

Kişi olub el içində dolanan,
Çəkəcək aləmdə sərsə qal indi.
Nadansan, qanmırsan xeyir, şərini,
Niyə qurdun mənə, sarsaq, al indi?

Müxənnətin ayağına, dərinə,
Xəstə olan yalvaracaq dərinə.
Əqlin çaşdı, niyə düşdün dərinə?
Kim deyirdi sənə sar sağal indi.

Abdullayam, düşdüm ala bilmirəm,
Qara xəttim olub ala bilmirəm.
İpəkdən, zərbafdan ala bilmirəm,
Yaraşır qəddinə, sarsaq, al indi.

YAR AĞINI SƏN

Səhər şikarına, seyri-gülşəndə
Alıbsan dəstimin yarağını sən.
Şirin danışanda, şirin güləndə,
Qatırsan şərbətə, yar, ağını sən.

Mərdin məclisində nə danəsidi,
Mürğün dəhanında nə danəsidi?
Dost dostdan sirrini nə danəsidi,
Deyirsən sözünün yar ağını sən.

Həqiqi dostunu sına gedəndə,
Seyraqub gərdəni sına gedəndə.
Sənətkar Abdulla sinə gedəndə,
Ümid var, verəsən, yar, ağını sən.

OYANAM İNDİ

Könül quşu pərvaz etdi qəfəsdən,
Çəkdi səməndini o yana, mindi.
Müntəzirəm gözü yolda qalmışam,
Bağlasan gözlərim, oyanam indi.

Kafi-lama çalsan çıxar bir sinə,
Min ayaqdan müddəsindən birsinə.
Gər qoysalar mənnən onu bir sinə
Bəlkə bu qəflətdən oyanam indi.

İgid gərək eşq içində az qala,
Eşq atəşi səngimişdi, az qala!
Gur sinəyəm canım gedir az qala
Beymürvət demir ki , oyan, əm indi.

Abdulla qürbətə düşəndə yana,
Eşq atəşi cana düşəndə yana,
Boşalıb qollarım düşəndə yana,
Əzrayıl əmr edər o yanam indi.

SİN ƏSƏR

Oyaq isən çək xədəngin ayağa,
Əlikdisə gəldi-keçdi sin əsər.
Eynim yaşı leysan təki a yağa,
Can ayrılar, cəsəd gedər, sin əsər.

Ərşdən aşağı enəndə yana,
Eşq atəşi cana edəndə yana,
Əzrayıl qeyznən enəndə yana,
Alışar cəsədin yanar sin əsər.

İgid gərək şər işlərdən səksənə,
Qədd əyilsə, deyəcəklər səy sənə.
Sənətkarın sinni keçir səksənə,
Sər sərinə gətirəcək sin əsər.

A YAĞI ZÜLFÜN

A beymürvət, məni candan eylədin,
Göründü gözümə a yağı zülfün.
Baş dayanar, qəhri çoxdur dünyada,
Toxunsa yandırar ayağı zülfün.

Fərhad cəfa çəkdi Şirin yerində,
Ürbah dura bilməz şirin yerində.
Şirin ixtilatın şirin yerində
Qatdı şərbətinə ay ağı zülfün

Köçdü yaylaqlara qarabağlı yar,
Əsər gədikləri qara bağlıyar.
Dost ayrılsa dostu qara bağlıyar,
Çəkər al üstündən ay ağı zülfün.

Abdullayam, yönüm düşdü hər yana,
Pərvanətək eşq oduna hər yana.
Siyah zülfün san çəkibdir hər yana,
Coşub əbru kimi a yağı zülfün.

YÜZ DƏRDƏ

Aman gözəl, əlac eylə dərdimə,
Səndən ötrü mən düşmüşəm yüz dərdə.
Ləblərindən özgə şəfa bilmərəm,
Əgər gəlsə mən xəstəyə yüz dərd də.

Xallarındı can quşuna ya sərdən,
Harda görsən hazar eylə yasərdən.
Səni görcək ağlım getdi ya sərdən,
Divanətək gözüm qaldı yüz dərdə.

Abdullaya göstərginən bağı sən,
Tax boynuma gülabatın bağı sən.
Naz ilə gir, seyr elə gəl bağı sən,
Süsən-sünbül, qönçə gülü yüz dər də.

SAYAD ƏMMƏNİ

Ovçusan, gəzirsən dağ damanında,
Sən Allah, öldürmə sayadam məni.
Mən gəzirəm Leyli-Məcnun ünündə,
Salma nəzərindən, sayadam məni.

Gəzdim, seyr eylədim adam içində,
Dəryayi-mühitəm adam içində,
Sayıl olub gəzsəm adam içində,
Seçər el içində say adam məni.

Abdullayam, qaldım yasın içində,
Yaradan saxlasın yasin içində,
“Əlif”,” lam” oxudum Yasin içində,
Yetişdim, öyrəndim, sayad “əmmə”ni.

AYA ZƏMİNDİ

Kamil ovçu durub ov bərəsində,
Qorxuram ovlaqdan ay azam indi.
Sərim dumanlıdır, köksüm odludur,
Dağılıb çiskinim, ayazam indi.

Dərd veribsən bundan artıq daha nə,
Gözəlliyin bundan artıq daha nə.
Ləblərini əgər versən dahanə,
Beymürvət, demirsən, ay az əm indi.

Bilən yoxdur nədi ismim, nədi adım,
Kimə çatdı nə fəryadım, nə dadım,
Əldən gedib nə ləzzətim, nə dadım,
Bilmirəm əsmandı, aya zəmindi.

Abdullayam, sərim nə qalam indi,
Dərdim üçün gərək nəq alam indi,
Nə kağız tapmıram, nə qələm indi,
Götürəm, dərdimi a yazam indi.

SƏR İNDİ

Yarın oylağının sehrinə vardım,
Yar gedib yaylağa, aya, sərindi.
Yar sevən canını qoyar sərasər,
Dost yolunda gedər, ayə, sər indi.

Sinəm üstü çalın-çarpaz bu dağı,
Yar dəstinə bax tutubdu bu dağı.
Bərvi yağı bağlayacaq budağı,
Bir badı gibadan ay əsər indi.

Taxtdan saldı Rüstəmi, a Zalı,
Göz görməsə məhəbbətlər azalı,
Abdullaya gələn dostlar azalı,
Gəlibdi sərimə ay əsər indi.

NƏ SAĞAM İNDİ

Nə kəmtale oldum mən bəxtiqara,
Eyləyirsən mənə nə sağı indi.
Bir dərdə düşmüşəm bulunmur çara,
Nə ölə bilirəm, nə sağam indi.

Gəl qarşıma – hər qovğaya, qala sən,
Mərd igidsən – el içində qala sən.
Mən gedirəm, sağlıq ilə qalasan,
İndi gül bədənim nəs ağa mindi.

Hazar gətdi dərdim üstə hazarı,
Müxənnətin qabağında ha zarı.
Məcnun təki gəz dağları, ha zarı,
Gəl gör taleyimi, nəs ağa mindi.

Cavan ömrüm getdi bada, dərdindən,
Cismim tab gətirmir bada dərindən.
Abdulla xəstədir bada dərindən,
Beymürvət qoymur ki, nəs ağam indi.

YARALA MƏNİ

Bir ərzim var qulluğuna rəfiqim,
Gör necə çəkibdir yar ala məni.
Od tutub cismimdə yanar atəşlər,
Seyraqublar qoymur yar ala məni.

Eyləyibsən gül rəngimi sarı sən,
Tərlan oylağına qoyma sarı, sən.
Təbibimsən qollarımı sarı sən,
Demədim neştər vur yarala məni.

İyidin varıdı, üz ağı gördüm,
Qəvvas dəryalardan üz ağı gördüm,
Abdullayam, yaxın-uzağı gördüm,
Görmədim tifiltək yar ala məni.

HA SİNİ

Cavan ömrüm getdi badi-fənaya,
Bundan belə dilim desin ha sini.
Ömür başa yetib, dil tərk olubdu,
Axtarıram ha siratı, ha sini.

Mərd iyidlər el içində qaladı,
Eşq atəşi səngimişdi, qaladı.
İyid ölsə bu dünyada qaladı,
Müxənnətlər gözləyəcək ha sini.

Abdullayam, el içində azadam.
Bax, nə qulam, nə nökərəm, azadam.
El içində kişi çıxar az adam,
Namərd olan ha incəli, ha sini!

GÖZƏL

Gözlərin şöləsi min aya bənzər,
Salmısan atəşə, a zalım gözəl.
Həsrətindən əlif qəddim dal oldu,
İstərəm, qadanı az alım, gözəl.

Örtmüsən başına şalı bağdadı,
Eşq ucundan məcnun könlüm bağdadı.
Füzuli gəşt etdi, gəzdi Bağdadı,
Rüstəmim, Zöhrabım, a zalım gözəl.

Usta Abdullanı salmısan dərdə,
Aparıb əqlimi salmısan dərdə.
Gəzdim Şəki, Şirvan, Qarabağ, Bərdə,
Bir insaf etmədin, a zalım gözəl.

CIĞALI TƏCNİS

ELƏ SƏN

Yaxşılıq, yamanlıq borcdur dünyada,
Mərdanəsən gəl yaxşılıq elə sən.

Aşıq deyər elə sən,
Oxu dərsin elə sən.
Yamanlığa yaxşılıq,
Gəl həmişə elə sən.

Öz-özünə çox boy verib ucalma,
Çıxammazsan obaya sən, elə sən.

Mərd iyidlər sadə olar, yəqindi,
Ürəyimdə qalmayıbdı yağ indi.

Aşıq deyər yəqindi,
Ədalət var yəqindi.
Qapı döyən, agah ol,
Döyülər qapın, yəqindi.

Göz ağrıyar bəduğuru görəndə,
Əl çəkmirsən, ha çıxırsan elə sən.

Dost yolunu gözləyərmi bedasıl,
Bekar yola qulluq edər bəd əsil.

Aşıq deyər bedasıl,
Görünmə sən bed asıl.
Çətindi ki, həyatda
Qarşı gələ bedasıl.

Öz qədrini nə bilirsən, bedasıl,
Qiymət qoyma obaya sən, elə sən.

DİVANİLƏR

BƏRİ BAX

Şəninə dastan yazaram,
Ay qoşa duran, bəri bax.
Gürcüsən, Aysorusan,
Yoxsa Dağıstan, bəri bax.
Səf düşdüm, səbb eylədim,
Mələksən, insan, bəri bax.
Xəstəyəm, yalvarıram,
Həkimi-loğman, bəri bax.

Gəzmişəm hər mahalı,
Gözəl yoxdur sən cürə bax.
Yolunda məhbus olmuşam,
Gərdənində zəncirə, bax.
Musayisən Tövrat oxu,
İsayisən İncilə bax.
İslamısan, and verirəm,
Ayeyi-Quran, bəri bax.

Qaş qara, gözlər ala,
Yanaqların xalına bax.
Danışır şirin-şirin,
Ləblərinin balına bax.

Oynayıb gülməkdədir,
Yoldaşının halına bax.
Yoldaşın bixəbərdir,
Sən təzə cavan, bəri bax.

Zülf tökülüb dal gərdənə,
Qabağa tellər yaraşır.
Burun püstə, dodaq qaymaq,
Yanağa güllər yaraşır.
Abdulla sadağadır,
Kəsməyə əllər yaraşır.
Hazarat, siz də deyin,
Gəlibdi qurban, bəri bax.

SƏNƏMİN

Gözəllərin gözəlidi,
Var bu sədası Sənəmin.
Sanasan gözəl imiş,
Ata, anası Sənəmin.
Düzülübdü sinəsinə
Qızıl düyməsi Sənəmin.
Göllərin yaşılbaşlısı
Kürün sonası Sənəmin.

Bu gələn Sənəmdimi?
Üstünün calalına bax.
Geyinibdi tər libası
Tirməsinə, şalına bax.
Yanaqları gül yarpağı,
Zənəxdanın xalına bax.
Oynayıb gülməkdədir
Şövqü, həvəsi Sənəmin.

Baxanda ala gözləri
Qəsd eləyir cana yəqin.
Hər kim görsə gözlərini
Olacaq divana yəqin.
Düşübdü bu gen həyata
Behiştdən nişana yəqin.
Deyirsən bayram gülüdür,
Əldə hənası Sənəmin.

Saatın xoş vaxtında
Xəlq eləyib kərəm kanı.
Görməmişəm belə gözəl
Çox gəzmişəm bu dünyanı.
Əgər görsə camalını,
Tamarzı tapar imanı.
Budur gəlir, ay Abdulla,
Əldə töfhəsi Sənəmin.

MOLLALAR

Varlılara yaltaqlanır,
Atıb imanı mollalar.
Danışır, vəsf eyləyir,
Hərdən İranı mollalar.
Xorasanı, gah Qəzvini,
Təbriz, Tehranı mollalar.
Dəm vurur mövhumatdan,
Qatır aranı mollalar.

Kəndlilər ayılıbdır,
Keçib mollanın bazarı.
Daha heç kəs inanmayır,
Artıbdı dərdi, azarı.
Düşməsin heç mahala,
Müftəxorların güzarı.
Üz görüb rüşvət alır,
Satır imanı mollalar.

Dövran yaman dəyişibdir,
Yıxıb xain obasını.
Bax, Abdulla heç gözləmir,
Qorxu, nəzər duasını.

Lazım budur yox eyləyək,
Mövhumatın yuvasını.
Fitnə-fəsad yuvasıdır,
Deyir yalanı mollalar.

DƏYƏR

Yazgülə dastan yazıram,
Küllü bu cahana dəyər.
Qaş qara, gözlər ala,
Sibi-zənəxdana dəyər.
Tökülüb şahmar zülfü,
Dal gərdəndə yana dəyər.
Ağ üzündə qoşa xalı,
Ləli-bədəxşana dəyər.

Bir ox dəyib sinəm üstə,
Bağlamasa qanım gedər.
Səf düşdüm, səbb eylədim,
Hər yana gümanım gedər.
Sərindən bir muy əyilsə,
Elə bil ki, canım gedər.
Əsməsin badi-sərsər,
Tellərinə şana dəyər.

Yanında yoldaşları var,
Qoyun isnat verim barı.
Birisinin adı Əsmər,
Birisinin adı Zərri.
Qoy könlünə yer gəlməsin,
Ata bilsin Sənətkarı,
Müxtəsəri mən nə deyim,
Yusifi-Kənana dəyər.

SÜLEYMANA BAXIN

(Göyçə mahalının Daşkənd kənd sakini Süleymana həsr olunub)

Mən aşiqəm, el içində
Dolanaram zaman-zaman.
Qəlbim dedi, belə şəxsə
Şeir qoşam, dastan yazam.
Allah bilir nanəciblə,
Müxənnətlə yoxdur aram.
Aqil görsəm səcdə qıllam,
Gedin Süleymana baxın.

Cavanlarda mətin gördüm
Hüseynlə Bayraməli,
Xaliqim alim yaradıb,
Bayram ilə Abuzəri.
Arasalar xalisini
Sərraf seçər simuzəri,
Hər kəlamı nəsihətdi,
Gedin Süleymana baxın.

Abdullayam, ağsaqqaldı,
El içində hörməti var.
Şirin ləhcə, xoş zəbanı
Ona verib pərvərdigar.
Danışanda o məclisdə
Aşıq, molla sakit durar,
Söz götürər, elm yığar,
Gedin Süleymana baxın.

ZODLU ABDULLAYA İTHAF OLUNMUŞ ŞEİRLƏR

ARA

Sözüm budur, kamil usta,
Yaxşı dostu, yaxşı ara.
İtirməz şah pərdəsini,
Yaxşı hörmət, yaxşı ara.

Hər gədəyə kişi demə,
Süfrəsində çörək yemə.
Bilirsənmi kimdən-kimə,
Sən vurursan yaxşı yara.

Haqq nahaqnan barışarmı?
Mərd namərdə qarışarmı?
Fitnə, böhtan yaraşarmı?
Yaxşı namus, yaxşı ara?!

Sirr verməynən yetən dosta,
Çək sınağa asta-asta.
Xəyallıyam, can de, usta,
Yaxşı dosta, yaxşı yara.

ÇAĞIMDI

Soruşma halımı, ay kamil usta,
Qəmlər dəryasına batan çağımdı.
Qəzanın qəhrindən, biçarə canım,
Hicranlar qoynunda yatan çağımdı.

Toxunub daşlara arzum, istəyim,
Qohuma, qardaşa dəymir gərəyim,
İllərlə oduna yanan mələyim,
Əhdini, eşqini atan çağımdı.

Xəyallıyam, bəxti qara, Abdulla,
Qəfil düşdüm bəd azara, Abdulla,
Loğmanım yox, artıb yara, Abdulla,
Canımı dərmana satan çağımdı.

USTA ABDULLA

Sənət aləmində, aqil yanında,
Bir hünərvər idi Usta Abdulla.
Təsifdə, qeyrətdə, mərdanəlikdə,
Mətin əsgər idi Usta Abdulla.

Dünya sirlərindən halıydı, halı,
Şair Məmmədhüseyn, Ağ Aşıq, Alı.
Nələr yetirməmiş Göyçə mahalı,
Qiymətli zər idi Usta Abdulla.

Şair cərgəsində xoş nəfəsi var,
Qəlbi dara çəkən zəmanəsi var,
Dünya muzeyində nişanəsi var,
Belə dülgər idi Usta Abdulla.

Laylası, bəstəsi saya gəlməzdi,
Kənddən, kəndxudadan qorxu bilməzdi.
Yersiz danışmazdı, yersiz gülməzdi,
Sözdə zərgər idi Usta Abdulla.

Onu da məhv etdi, Alqayıt, zaman,
Gözündə ehtişam, qəlbində güman.
Tale qismətində həm Növrəs İman,
Həm Ələsgər idi – Usta Abdulla.

DEYİŞMƏLƏR

NÖVRƏS İMANLA DEYİŞMƏ

Növrəs İman:

Ya mənim adımı, ya öz adını,
Tut böyük qardaşım al əvəzində.
Ayırma kənara məndən yadını,
Gəzərəm dəryanı çöl əvəzində.

Abdulla:

Əzizi-mükərrəm ey nuru-didəm,
Durmuşam əmrində qul əvəzində.
Vicudi bibala müşkü ehtiram,
Geyərəm gərpasın şal əvəzində.

Növrəs İman:

Əzəl iltimasım bil səndən budur,
Aç de mətləbini mən görüm nədir.
Əgər ki verməyə olmasa nağddır,
Kəs götür başımı pul əvəzində.

Abdulla:

Namə yazdın məni saldın dərinə,
Qurban olum mərd iyidin sərinə.
And olsun musaya, şərbət yerinə
İçərəm zəhrini bal əvəzində.

Növrəs İman:

Elə bildim yatıb mənim iqbalım,
Qar alır qapını qarışır halım.
Qabağına qatmağa olmasa malım,
Apar sat İmanı qul əvəzində.

Abdulla:

Abdullayam, düşdüm haqqın sayına,
Qədir mövlam fürsət verməz xayına.
Döşərəm üzümü xaki-payına,
Gəzərsən xanəndə nal əvəzində.

HƏSƏN XƏYALLI İLƏ DEYİŞMƏ

Zodlu Abdulla:

Arif məclisində, qanan yanında,
Hər sözü dillərə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısıyla döyülən mənəm.

Həsən Xəyallı:

Ənbiyalar, övlüyalar şənində,
Zülaldan söhbəti sayılan mənəm.
Arif məclisində, alim yanında,
Bal kimi kəlməsi yeyilən mənəm.

Zodlu Abdulla:

Taqət olmaz qəriblərin dizində,
Mürvət olar mərd igidin özündə.
Səksənində, doxsanında, yüzündə
Qəflət yuxusundan ayılan mənəm.

Həsən Xəyallı:

Bir qərib səyyaham bu qürbət eldə,
Haqqın min bir adın zikr edən dildə.
Ümman dövlət-vardan qalmayan əldə,
Vətən həsrətindən əyilən mənəm.

Zodlu Abdulla:

Yatmış idim, bəxtim məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı.
Mahalım Göyçədi, ünvanım Zoddu,
Sənətkar Abdulla deyilən mənəm.

Həsən Xəyallı:

Zəmanə namərdi mərdə tuş etdi,
Düzəlməz könlümün şadlığı getdi.
Mahalım Göyçədi, kəndim Daşkənddi,
O, Həsən Xəyallı deyilən mənəm.

ƏHVALAT

Bəli, əzizdərim. Qulluğunuza hardan ərz edim, kimnən deyim? Göyçə mahalının Zod kəndinnən Usta Abdulladan. Onun adı təkcə söz sərrafı kimi deyil, həm də dülgərlikdə Qafqaz ellərində yaxşı tanınırdı.

Abdulla kişi Cavanşir mahalına, yəni Kəlbəcərə böyük bir imarətin dülgərlik işini görmək üçün dəvət alır. Usta Abdulla imarətdə işini görməyində olsun, sizə kimnən deyim, Minayə xanımdan. Minayə xanım da gözəl xalı toxuyurdu, onun gözəlliyi və toxuduğu xalılar Cavanşir mahalında dillər əzbəriydi. Yaxşı təbi vardı, yeri gələndə şeirlər yazardı. Minayə xanım Zoddu Abdulla barədə çox eşitmişdi. Dedi, gedim görüm, ustanın əl işi xoşuma gəlsə, mən də təzə tikdirdiyim evin dülgər işini ona gördürərəm. Bu minvalla Minayə imarətə yaxınlaşır, həmin vaxt Abdulla kişi əlində kərki ağac yonurdu. Başını qaldırıb Minayəni görəndə onun gözəlliyinə o qədər heyran oldu ki, taxta yonduğunu unutdu. Əlindəki kərkini ağaca vurmaq əvəzinə dizinə vurub yaraladı.

Minayə Abdulladan adının nə olduğunu soruşdu. Usta Abdulla Minayəni elə gördü, fikirləşdi ki, bu gözəl Minayə olacaq. Karıxdığından adının ona Minayə olduğunu dedi. Minayə təccüfləndi. Dedi ki, Minayə qadın adıdır. Usta Abdulla burada əməllijə

axşamladığını bildi. Aldı görək, Minayəyə özünü necə tanıtdı:

Nəqafil ölkənə düşdü güzarım,
Ləhcədə oxunan Minayə mənəm.
Günü-gündən artır dərdi-azarım,
Bir dəyqəsi dönən min ayə mənəm.

Minayə Usta Abdullanın karıxdığını gördü. Bir ona, bir də dizindən axan qana baxdı. Yanındakı səhəngdən su tökdü, ustaya verdi. Usta sudan içdi və bir az özünə gəlib sözünü belə davam etdi:

Musa Beytullada Mina ya vardı,
Quranda oxunan min ayə vardı,
Həcər nalə çəkdi, Minaya vardı,
İsmayıltək gələn Minaya mənəm.

Minayə xanım ustanın yanına bir xanımla gəlmişdi. Onunla gələn xanım ustanın dizindən qan axdığını görüb Minayəyə dedi ki, Minayə xanım gedim sarğı gətirim yarasını bağlayaq.

Minayə xanım hiss etdi ki, Usta Abdulla onun ucbatından bu kökə düşüb. Dizini istahatdan çıxarıbdır. Usta Abdulla da xanımların danışığından tam yəqin etdi ki, qarşısında duran gözəl Minayə xanımdır.

Götürdü görək, özünü sözün tafşırmasında Minayə xanıma nejə isnat verdi:

Abdulla da çəkməz dostdan ayağı,
Piltə yanar, şölə verər a yağı.
A beymürvət, a nainsaf, a yağı,
Bəs niyə demirsən, Minayə mənəm?

Usta Abdullanın dizini sarıdılar. Dizi möhkəm yaralandığından Abdulla kişi ev sahibindən icazə alıb Göyçəyə qayıtdı ki, dizi sağalandan gələr yarımçıq işini görər.

İndi sizə kimdən ərz edim, Aşıq Ələsgərin şəyirdi Aşıq Əsəddən. Aşıq Əsəd xavar tutdu ki, Abdulla kişi bir balaja xata törədib, dizini yaralayıb. Usta Abdullanın yanına gəldi. Usta da başına gələnləri, Minayənin qənirsiz gözəlliyini söz-söhbətlə Aşıq Əsədə nəql etdi.

Günlərin bir günü Aşıq Əsəd Kəlbəcərə toya dəvət aldı.

Deyir, böyük bir mağardı. Aşıq Əsəd mağarda oxuyur. Minayə eşidir ki, toyu aparan Aşıq Ələsgərin şəyirdi Aşıq Əsəddir. Deyir, deyirlər bu, səsi ilə otuzluq lənpəni keçirdir. Gedim bir bunun üzünü görüm, necə aşıqdır?

Minayə xanım toy mağarına daxil olanda Əsəd ustadı Aşıq Ələsgərdən oxuyurdu. Amma elmi oxuyur, quş göydə qanad saxlıyır. Səsi dağı-daşı lərziyə gətirir. Əsəd Minayəni görür, ayaqdan başa onu süzür. Görür ki, Minayə qənirsiz gözəldir. Boğazında su görünər, arxadan tökülən hörüklər deyir, elə bil alaçıq çubuğudur. Əsəd Minayənin gözəlliyinə aludə olur, Zoddu Abdulla kimi bu da çaşır. Ustadı Ələsgərdən oxuduğu şeiri Aşıq Alı ilə tamamlayanda, Minayə sərraf adamıydı, həm də yazırdı, dedi ustad, hər kəsin payını öz qabına çəksən yaxşı olardı. Əsəd hiss edir ki, bu onun səhv oxuduğunu duydu. Düşündü ki, Zoddu Abdulla dediyi Minayə olacaq. Sazın zilini zil, bəmini bəm eliyir, görək Minayə xanıma nə deyir?

Müddətdir düşmüşəm mən intizara,
Bircə söylə görüm, Minayəsənmi?
Zodlu Abdullanı salan azara,
Bircə söylə görüm, Minayəsənmi?

Minayə baxır, Aşıq Əsəd eləmi gözəl oxuyur. Deyir, aşıq qulax as:

Aşıq, xoş gəlmisən bizim diyara,
Dillərdə söylənən Minayə mənəm.
Nə üçün düşübsən sən intizara?
Yaxşıca tapıbsan, Minayə mənəm.

Aldı Aşıq Əsəd:

Doldurub gətir sən mey piyaləsi,
Canım alır ala gözün şöləsi.
A beymürvət, nainsafın balası,
Bircə söylə görüm, Minayəsənmi?

Aldı Minayə:

Nazlı-qəmzəlidi mənim yerişim,
Çox canlar alıbdır süzgün baxışım.
Yeddi rəngə vuran əlvan naxışı,
Barmaqda toxuyan Minayə mənəm.

Aldı Aşıq Əsəd:

Əsəd gəşt eyləyər Bakı, Salyanda,
Tarixin söylərəm ol Dağıstanda.
Sənin kimi gözəl yoxdu cahanda,
Bircə söylə görüm, Minayəsənmi?

Minayə gördü ki, Aşıq Əsəd onun gözəlliyinə bu cür qiymət verir, dedi, sən bunun aşıqlığını görürsən. Sən də bunun aşıxlığına qiymat ver. Aldı Minayə görək nə dedi?

Kəndim Kəlbəcərdi, elim Cavanşir,
Hər kəs məni görsə, xəyalı çaşır.
Vallahi, aşıxlıq sənə yaraşır,
İsmi pünhan, Əsəd, Minayə mənəm.

Söz tamama yetir, ustad məclisi Zodlu Abdullanın bir duvaqqapması ilə bağlayır, biz deyək, siz şad olun:

Şəninə dastan yazaram,
Ay qoşa duran, bəri bax.
Gürcüsən, Aysorusan,
Yoxsa Dağıstan, bəri bax.
Səf düşdüm, səbb[1] eylədim,
Mələksən, insan, bəri bax.
Xəstəyəm, yalvarıram,
Həkimi-loğman, bəri bax.

Gəzmişəm hər mahalı,
Gözəl yoxdur sən cürə bax.
Yolunda məhbus olmuşam,
Gərdənində zəncirə, bax.
Musayisən Tövrat oxu,
İsayisən İncilə bax.
İslamısan, and verirəm,
Ayeyi-Quran, bəri bax.

[1] Şəkk etmək mənasında

Qaş qara, gözlər ala,
Yanaqların xalına bax.
Danışır şirin-şirin,
Ləblərinin balına bax.
Oynayıb gülməkdədir,
Yoldaşının halına bax.
Yoldaşın bixəbərdir,
Sən təzə cavan, bəri bax.

Zülf tökülüb dal gərdənə,
Qabağa tellər yaraşır.
Burun püstə, dodaq qaymaq,
Yanağa güllər yaraşır.
Abdulla sadağadır,
Kəsməyə əllər yaraşır.
Hazarat, siz də deyin,
Gəlibdi qurban, bəri bax.

Söylədi:
Aşıq Bəhmən GÖYÇƏLİ (Kazımov)
Əməkdar mədəniyyət işçisi

MÜNDƏRİCAT

ÖN SÖZ.....3
MAHALIM GÖYÇƏDİ, SAKİNİM ZODDU 11
ARASINDA 19
DÖNDƏRDİN 19
NEYNİM.....20
QƏZAM MƏNİM 21
OLAYDI 21
MƏN 22
YERİ 23
DEMƏKDİ 24
GƏLİRƏM MƏN.....25
DİLBƏR 26
HARDA MƏN.....28
QARIŞAR.....29
BAD OLAN VARMI 29
QALAMAQDADI 31
NİŞANASI.....31
YAZ, QƏLƏM, İNDİ 32
ÇƏKMİŞƏM 33
GÖR.....34
AĞLAMA 35
DİLİM-DİLİM.....36
YOL KƏNARINDA.....36

MƏNƏM 37
HƏCƏR 38
SANINCA 39
YAXŞIDI 39
BİLƏ.....40
ŞƏLALƏSİNDƏN 41
ŞİRİNMİŞ 42
GƏRƏKDİ.....43
OLMAZ-OLMAZ.....43
YETƏR 44
VAR 46
XANIM.....47
EYLƏSİN 48
YAVAŞ-YAVAŞ 49
GƏLSİN.....50
TƏKİ 51
YAVAŞ-YAVAŞ 51
ZÜLFLƏRİN 52
ANA BİLMƏSİN.....53
GÜLƏ-GÜLƏ 54
ÇAĞINDA.....55
AXTARIRSAN 55
QADAĞA DÜŞDÜ.....56
QƏZA BAX 57
BU 58

GÜLƏ-GÜLƏ 58
GÖRƏNDƏ.....59
A YARA DƏYDİ.....61
A YAZI BELƏ 62
YAY İNDİ.....62
YAD AĞI GƏZƏR 63
LEYLİNİ YAZDI.....64
SALMAS.....65
SƏRSƏ QAL İNDİ.....66
YAR AĞINI SƏN 66
OYANAM İNDİ.....67
SİN ƏSƏR.....68
A YAĞI ZÜLFÜN 69
YÜZ DƏRDƏ.....70
SAYAD ƏMMƏNİ.....70
AYA ZƏMİNDİ.....71
SƏR İNDİ.....72
NƏ SAĞAM İNDİ.....73
YARALA MƏNİ.....74
HA SİNİ 74
GÖZƏL.....75
ELƏ SƏN 77
BƏRİ BAX.....80
SƏNƏMİN 81
MOLLALAR 83

DƏYƏR 84
SÜLEYMANA BAXIN 85
ARA 88
ÇAĞIMDI 89
USTA ABDULLA 90
NÖVRƏS İMANLA DEYİŞMƏ.....92
HƏSƏN XƏYALLI İLƏ DEYİŞMƏ.....94
USTA ABDULLANIN KƏLBƏCƏR ƏHVALATI 97

Azərbaycan Tibb Universiteti

“Təbib” nəşriyyatı

Müdir: S.H.Xudayarov

Çapa imzalanmışdır: 16.05.2024

Formatı: 60x84 1/16

Fiziki çap vərəqi: 6,75

Sifariş: 46

Tiraj: 500

ATU-nun “Təbib” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Ünvan: Bakı ş., Nəsimi r., S.Vurğun küçəsi, 165.

Mob.: +994 70 364 52 25; +994 55 764 52 25.